Rzayev, M. Şəhid xatirəsinə ehtiram borcumuzdur / Maarif Rzayev // Respublika. - 2021. - 4 iyun. - № 114. - S. 8.

Şəhid olmaq hər kəsə nəsib olmur. Şəhidlik zirvəsinə ucalmaq böyük şərəfdir. 44 günlük müharibədə Azərbaycan xalqının yeni tarixinə bu şərəf və ləyaqəti qızıl hərflərlə yazanlar şəhidlərimiz oldu.

Ölkəmizin bütün guşələrindən ordu sıralarında döyüşə can atan fədakar və qorxmaz gənclərimiz, peşəkar hərbçilərimiz ölüm-qalım meydanında əsl nümunə göstərdilər.

Ucar rayonundan ilk günlərdən Qarabağ savaşına qatılan vətənpərvər gənclərin adları həmişə qürurla çəkilir. Qədirbilən ucarlılar onların xatirəsini daim uca tutur, məzarlarını ziyarət edirlər. Bu günlərdə keçirilən anım mərasimi də şəhid Elçin İsmayılovun doğum günü münasibətilə təşkil edilmişdi. Ömrünün 31 yaşında şəhidlik zirvəsinə ucalmış Elçin ailənin ilk övladı-üç qardaşdan ən böyüyü idi. Ali Hərbi Məktəbi bitirmişdi. Arzusu doğma Qarabağımızın azad edilməsinə hərbçi töhfəsini vermək idi. Kapitan Elçin İsmayılov öz üzərində daim çalışan, vətənpərvər zabit idi. Müharibənin ağır günlərində Füzuli uğrunda gedən qızğın döyüşlərdə şəhid olmuş Xüsusi Təyinatlı Qüvvələrin kapitanı təəssüf ki, Zəfər Gününü görə bilmədi. Sonadək öz hərbçi borcunu şərəflə yerinə yetirən Elçin yağılara qan udduran döyüşçü yoldaşlarının qələbəsinə inanırdı.

Elçin İsmayılov ailəli idi. Ocağında Ömər və Mübariz kimi Vətən əmanəti, iki oğul övladı böyüyür.

Elçin İsmayılovun məzarı önündə çıxış edənlər Ucar Rayon İcra Hakimiyyəti başçısının müavini, YAP Ucar Rayon Təşkilatının sədri Şəhla Abdullayeva, Ucar rayon “Came” məscidinin axundu Hacı Elnur, Ağdaş Regional Mədəniyyət İdarəsinin Ucar rayonu üzrə nümayəndəsi Alı Babayev qeyd etdilər ki, 44 günlük Vətən müharibəsində şəhid oğullarımız qəhrəmanlıq dastanı yazdılar.

Şəhidin məzarı önünə gül dəstələri düzüldü, xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Ucar məktəbliləri şəhidlərə həsr olunmuş vətənpərvərlik ruhunda şeirlər söylədilər.

Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə kapitan Elçin İsmayılov ölümündən sonra “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə”, “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif olunub.

Allah rəhmət eləsin.